DOI: https://doi.org/10.36719/2663-4619/120/54-58

**Xəlil Yusifli**
Gəncə Dövlət Universiteti
doktorant
https://orcid.org/0009-0008-4195-4800
yusiflixalil1@gmail.com

# Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin həyata keçirilməsində gənclər təşkilatlarının rolu

## Xülasə

Gənclər bütün dövrlərdə ölkənin hərəkətverici qüvvəsi kimi dövlətin müdafiəsində, qanun-qaydanın və təhlükəsizliyin təmin edilməsində aparıcı rol oynamışdır. Əhalisində gənclərin payı getdikcə artan Azərbaycan Respublikasında gənclər siyasəti, dövlətin prioritet istiqamətlərindən biri kimi xüsusi əhəmiyyət kəsb edir. Sosial siyasətin tərkib hissəsi olan gənclər siyasəti, gənclərin cəmiyyətin bütün sferalarında iştirakını və potensiallarından səmərəli istifadəsini təmin edən tədbirlər sistemidir. Bu məqalədə Azərbaycan Respublikasının gənclər siyasətinin əsas iştirakçılarından olan yerli və beynəlxalq gənclər təşkilatlarının fəaliyyəti, həmçinin onların icra mexanizmləri təhlil olunur. Dövlətin gənclər təşkilatlarına olan münasibəti və dəstəyi xüsusi olaraq vurğulanır. Tədqiqatın məqsədi gənclər təşkilatlarının dövlət gənclər siyasətinə və gənclərin inkişafına təsirini, eləcə də bu siyasətdə tutduqları mövqeyi müəyyənləşdirməkdir. Araşdırma nəticəsində müəyyən edilmişdir ki, gənclər təşkilatları gənclərin ictimai proseslərə fəal şəkildə qatılmasını təmin edir, onların cəmiyyətdə özünü ifadə etməsinə imkan yaradır və gəncləri fəal, məsuliyyətli vətəndaşlara çevirir. Yekunda bu qurumlar, ölkənin sosial, mədəni və iqtisadi inkişafına əhəmiyyətli töhfə verməklə yanaşı, dövlət gənclər siyasətinin səmərəli icrasına da dəstək göstərir.

***Açar sözlər:*** *gənclər siyasəti, gənclər təşkilatları, sosial inkişaf, dövlət siyasəti, Azərbaycan Respublikası*

**Khalil Yusifli**
Ganja State University
PhD student
https://orcid.org/0009-0008-4195-4800
yusiflixalil1@gmail.com

# The Role of Youth Organizations in the Implementation of the State Youth Policy in the Republic of Azerbaijan

## Abstract

Youth have always played a leading role as a driving force of the country, contributing to the defense of the state, the maintenance of law and order, and ensuring security. In the Republic of Azerbaijan, where the proportion of youth in the population is steadily increasing, youth policy holds special significance as one of the state's priority directions. As a component of social policy, youth policy is a system of measures that ensures the participation of young people in all spheres of society and the effective utilization of their potential. This article analyzes the activities of local and international youth organizations, which are the main participants in the youth policy of the Republic of Azerbaijan, as well as their implementation mechanisms. The state's attitude toward and support for youth organizations is specifically highlighted. The aim of the study is to determine the influence of youth organizations on state youth policy and youth development, as well as the position they hold within this policy. The study found that youth organizations facilitate the active participation of young people in social processes, enable them to express themselves in society and

 Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

transform them into active and responsible citizens. Ultimately, these institutions make a significant contribution to the country's social, cultural and economic development, while also supporting the effective implementation of state youth policy.

***Keywords:*** *youth policy, youth organizations, social development, state policy, Azerbaijan Republic*

## Giriş

Hər bir ölkənin əsas hərəkətverici qüvvəsi onun gəncləridir. Ölkənin gələcəyi, iqtisadi, siyasi və mədəni inkişafı birbaşa gənclərdən asılıdır. Gənclərin düzgün yetişdirilməsi, onların vahid dəyərlər ətrafında birləşdirilərək cəmiyyətin aktiv üzvlərinə çevrilməsi, dövlətin sosial siyasətinin mühüm tərkib hissəsi olan gənclər siyasəti vasitəsilə həyata keçirilir. Gənclər siyasəti çox geniş bir spektri – gənclərin təhsili, tərbiyəsi, sağlamlığı, intellektual və mənəvi inkişafı, asudə vaxtının səmərəli təşkili, cəmiyyətin bütün sahələrində fəal iştirakı ilə bağlı məsələləri əhatə edir (Rəcəbli, 2012, s. 213).

Azərbaycan Respublikası gənc əhalisinin artmaqda olduğu ölkələrdən biridir və əhalisinin 22 faizdən çoxunu gənclər təşkil edir (Dövlət Statistika Komitəsi, 2024). Bu, gənclər siyasətinə göstərilən diqqətin gündən-günə artmasına səbəb olur. 1991-ci ildə Azərbaycan Respublikasının müstəqilliyini əldə etməsi ilə "Gənclər siyasəti haqqında" qanun qəbul olunsa da, bu sahədə heç bir praktiki addım atılmamışdır. Həmin dövrdə gənclər arasında ruh düşkünlüyü yaranmış, dövlətə inam azalmış və mənfi halların sayı artmışdır. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə Azərbaycan Respublikasında dövlət quruculuğu, o cümlədən gənclər siyasəti sahəsində yeni bir mərhələyə qədəm qoyuldu.

Ulu Öndər Heydər Əliyevin və onun davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə bu günə qədər gənclər siyasəti sahəsində çoxsaylı hüquqi aktlar qəbul edilmiş, müxtəlif tədbirlər, forumlar və konfranslar həyata keçirilmişdir. Azərbaycanın gənclər siyasətində əsas məqsəd, vəzifə və istiqamətlər 2002-ci ildə qəbul edilmiş "Dövlət gənclər siyasəti haqqında" qanunla müəyyən edilmişdir. Qanuna görə, gənclər siyasəti – gənclərin hərtərəfli inkişafını və cəmiyyət həyatında onların fəal iştirakını təmin etmək məqsədilə dövlət tərəfindən ictimai-siyasi, sosial-iqtisadi və təşkilati-hüquqi şəraitin yaradılmasına yönəlmiş tədbirlər sistemidir (Azərbaycan Respublikasının Qanunu, 2002).

Azərbaycan Respublikasının gənclər siyasətinə nəzər saldıqda, əsas subyektin dövlət orqanları olduğu görünür. Lakin ölkədə həyata keçirilən gənclər siyasətinin prioritet istiqamətlərindən və əsas iştirakçılarından biri də gənclər təşkilatlarıdır ki, onların rolu əvəzolunmazdır. Gənclərin təşkilatlar yaratması və bu təşkilatlar ətrafında birləşməsi, onların cəmiyyətdə özlərini ifadə edə bilməsinə, müxtəlif layihə və tədbirlər həyata keçirməsinə, problemlərinin həll yollarını müəyyənləşdirməsinə şərait yaradır və bu da onların ictimai, siyasi həyatla yanaşı, gənclər siyasətində də iştirakına imkan verir.

**Tədqiqat**

Azərbaycan Respublikasında 1993-cü ildən başlayaraq bu günə qədər çoxsaylı qeyri-hökumət təşkilatı (QHT) statusuna malik gənclər təşkilatları yaranmışdır. Hazırda Ədliyyə Nazirliyində qeydiyyatdan keçmiş 310-dan çox gənclər təşkilatı mövcuddur və onların böyük bir qismi, 1995-ci ildə gənclər təşkilatlarının fəaliyyətini əlaqələndirmək məqsədilə 11 gənclər təşkilatı tərəfindən yaradılmış Azərbaycan Gənclər Təşkilatları Milli Şurası ətrafında birləşmişdir.

Şura ölkə gəncləri və gənclər təşkilatlarının yeganə konfederativ strukturu, vahid koordinasiya və əməkdaşlıq mərkəzi olmaqla onların beynəlxalq inteqrasiyasını təşkil və təmin edən qurumdur. Şura gənclərin davamlı inkişafını təmin etmək, respublikada mövcud olan gənclər təşkilatlarının fəaliyyətini əlaqələndirmək, Azərbaycan gəncliyini beynəlxalq aləmdə tanıtmaq, dövlət quruculuğuna gəncləri cəlb etmək məqsədilə bir çox layihə və tədbirlər həyata keçirir, həmçinin beynəlxalq gənclik qurumları ilə əməkdaşlığı inkişaf etdirir.

Azərbaycanın Avropa Şurasına qəbulunda da böyük xidmətləri olmuş Milli Şuranın fəaliyyəti nəticəsində bir sıra uşaq və gənclər təşkilatı beynəlxalq qurumlarda təmsil olunmaq hüququ əldə

etmişdir. Məsələn, Azərbaycan Skautlar Assosiasiyası Ümumdünya Skaut Hərəkatı Təşkilatına, Gənc Hüquqşünaslar Birliyi isə Gənc Hüquqşünasların Beynəlxalq Assosiasiyasına üzv qəbul edilmişdir. Bunlarla yanaşı, Milli Şura 1997-ci ildən Avropa Gənclər Forumu və Türk Dünyası Gənclər Birliyinin, 2002-ci ildən BMT-nin İqtisadi və Sosial Şurasının, 2004-cü ildən isə İslam Konfransı Gənclər Forumunun təsisçi tərəfdaşı və tamhüquqlu üzvüdür (Cəfərov, 2009, s. 390; Biz kimik, 2025).

Azərbaycanda fəaliyyət göstərən gənclər təşkilatları gənclərin cəmiyyətə qatılımını artıraraq onlarla mütəmadi iş aparırlar. Təşkilatların gənclərə yönəltdiyi fəaliyyətləri isə aşağıdakı başlıqlar altında qruplaşdırmaq olar:

- Gənclərin sosial bacarıqlarını artırmaq və inkişaf etdirmək;
- Gənclərin ictimai həyatda fəal iştirakını təmin etmək;
- Gənclərin məşğulluğuna dəstək məqsədilə təlim və kurslar təşkil etmək;
- Gənclərin təhsilini və dünyagörüşünü genişləndirmək;
- Gənclərin asudə vaxtını səmərəli təşkil etmək.

Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi respublikada fəaliyyət göstərən bütün gənclər təşkilatları ilə sıx əlaqədə çalışır, birgə müxtəlif təlimlər və layihələr hazırlayaraq həyata keçirir (Cəfərov, 2007, s. 172). Bununla yanaşı, Azərbaycan Respublikasının Gənclər Fondu tərəfindən gənclər təşkilatlarının maliyyələşdirilməsinə dəstək göstərilir və müxtəlif qrant müsabiqələri həyata keçirilir. 2011-ci ildən, yəni yarandığı gündən bu günə kimi Gənclər Fondu gənclər təşkilatları üçün 15 qrant müsabiqəsi təşkil etmişdir. 2021-ci ilin 5–24 iyul tarixlərində keçirilən qrant müsabiqəsində gənclər təşkilatlarının yerli layihələri üzrə 66, beynəlxalq layihələri üzrə isə 3 layihəyə qrant ayrılmışdır (Gənclər Fondu, 2021).

Gənclər siyasətinin həyata keçirilməsində fəal iştirak edən təşkilatlar arasında Gənc Vətənpərvərlər İctimai Birliyi, Gənclərin Elmi Araşdırmalarına Dəstək İctimai Birliyi, Azərbaycan Maarifçi Gənclər Təşkilatı və Davam Gənclər Hərəkatı kimi nümunələr göstərmək olar. Bu təşkilatlar arasında fəaliyyət genişliyi ilə fərqlənənlərdən biri də Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqıdır (ATGTİ). İlk yaradıldığı illərdə 39 təhsil müəssisəsinin tələbə-gənclik təşkilatını özündə birləşdirən ATGTİ hazırda ölkədəki bütün ali təhsil və orta ixtisas təhsili müəssisələrində aktiv fəaliyyət göstərir. Təşkilatın əsas məqsədləri gənclərin elmi fəaliyyətlərini, təhsilini və tədqiqatlarını stimullaşdırmaq, onların hüquqlarını qorumaq və cəmiyyətə fəal qatılımını təmin etməkdir (Talibli, 2023).

Azərbaycan Respublikasında gənclər siyasətinin həyata keçirilməsi təkcə yerli gənclər təşkilatları ilə məhdudlaşmır, eyni zamanda beynəlxalq təşkilatlarda fəal iştirak edirlər. Bunlardan biri, 4 qitədən 120-dən çox ölkəni özündə birləşdirən Qoşulmama Hərəkatıdır. 2021-ci il 25–28 iyul tarixlərində Bakıda keçirilən Qoşulmama Hərəkatının (NAM) Gənclər Sammitinin Şuşa sessiyasının nəticəsi olaraq, Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsi əsasında NAM Gənclər Təşkilatı yaradılıb. Şuşa Akkordu (Şuşa razılaşması) ilə təşkilatın daimi mərkəzi Bakıda yerləşdirilib, həmçinin onun nizamnaməsi, loqosu və bayrağı müəyyənləşdirilib. Ardınca 2025-ci ildə Bakıda Qoşulmama Hərəkatı Gənclər Təşkilatının Tədqiqat Mərkəzi açılıb. Bu Tədqiqat Mərkəzi gənclərin təhsil və elmi tədqiqat sahələrində fəaliyyətini dəstəkləyir (NAM Youth Organization, 2021).

Müasir dövrdə gənclərlə bağlı layihələr hazırlayan, tədqiqatlar aparan və müxtəlif inkişaf planları irəli sürən aparıcı təşkilatlardan biri Birləşmiş Millətlər Təşkilatıdır (BMT). Azərbaycanda BMT tərəfindən keyfiyyətli təhsil, gender bərabərliyi, bərabərsizliyin azaldılması və iqlim dəyişikliyinə qarşı mübarizə məqsədilə çoxsaylı təlim və seminarlar keçirilir. Həmçinin, 5 ildən bir BMT Azərbaycanın gənclər siyasətinin idarə olunma mexanizmini, əsas prioritetlərini, strategiyalarını və gənclərlə bağlı qərarların qəbulunda iştirak edən strukturları əks etdirən "Azərbaycan Gənclər Siyasətinin İdarə Olunması" (Azerbaijan Youth Policy Governance) adlı sənədi nəşr edir. BMT-nin bu kimi sənədləri ölkələrə öz gənclər siyasətlərini inkişaf etdirmək və beynəlxalq standartlara uyğunlaşdırmaq üçün rəhbərlik edir (Aslanbayova, 2021).

Azərbaycanda fəaliyyət göstərən yerli gənclər təşkilatları ilə yanaşı, xaricdə yaşayan azərbaycanlı gəncləri bir araya gətirən qurumlar da mövcuddur. Onlardan biri Diasporla İş üzrə Dövlət Komitəsinin təşəbbüsü ilə keçirilən "Cümhuriyyətin 100 illiyi" adlı I Yay Düşərgəsində yaradılmış

Azərbaycan Diaspor Gəncləri təşkilatıdır. Təşkilatın məqsədi Azərbaycanın tarixi-mədəni irsini və adət-ənənələrini tanıtmaq, azərbaycanlı gənclər və tələbələr arasında əməkdaşlığı gücləndirmək, həmçinin onların yaşadıqları ölkələrin ictimai həyatına inteqrasiyasını təşviq etməkdir. Bundan başqa, xarici ölkələrdə Dünya Azərbaycanlı Gənclər Birliyi, Latviya Gənclər Təşkilatı, Kanada Azer-Türk Gənclər Təşkilatı kimi gənclər təşkilatları da fəaliyyət göstərir (Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi, 2018).

Rusiya Federasiyasında fəaliyyət göstərən Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatı (AMOR) xaricdə Azərbaycan gənclərini təmsil edən mühüm qurumlardan biridir. Təşkilat Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə yaradılıb. Rusiyada yaşayan azərbaycanlı gəncləri bir araya gətirən AMOR, Azərbaycan mədəniyyətini tanıtmaq məqsədilə çoxsaylı layihələr həyata keçirir və mədəniyyətlərarası mübadilənin inkişafına töhfə verir (Yusifli, 2025, s. 36).

Gənclərin diaspor təşkilatlarının ümumi fəaliyyətini dəyərləndirən Prezident İlham Əliyev qeyd etmişdir: "İndi diaspor təşkilatlarımız daha da güclənib, formalaşıb və dünyanın istənilən yerində tədbirlər keçirməyə qadirdir. Televiziyadan bu hadisələrə baxanda görürük ki, orada da gənclərimiz ön sıralardadır. Yəni gənclər daim fəaldırlar və bu fəaliyyətin müsbət istiqaməti olmalıdır. Mən çox şadam ki, gənclərimiz ölkənin hərtərəfli inkişafında öz rolunu oynayır, müstəqilliyin əsaslarını möhkəmləndirir. Gənclər vətənpərvərdirlər, vətənə bağlıdırlar, milli ruhda tərbiyə olunurlar, onlar artıq ölkəmizi gələcəkdə uğurla idarə etməyə hazırlaşmalıdırlar" (Cəfərov, 2004, s. 45).

Azərbaycan gənclər təşkilatlarının səmərəli fəaliyyəti nəticəsində "Dialoq və Əməkdaşlıq Uğrunda", "İslam Konfransı Gənclər Forumu", "Dünya Türk Gəncləri Birliyi" və "Böyük İpək Yolu" Beynəlxalq Gənclər Birliyi kimi yeni regional platformalar yaradılıb (Cəfərov, 2009, s. 390). Bu platformalar vasitəsilə Azərbaycan gənclər təşkilatları xarici tərəfdaşlarla əlaqələrini genişləndirib, xüsusilə də Dünya Türk Gəncləri Birliyi çərçivəsində 36 türk dilli xalqın 40-dan çox təşkilatı ilə əməkdaşlıq edib. Nəticədə, bilik və təcrübə mübadiləsi aparılıb, beynəlxalq arenada həm Azərbaycan, həm də Azərbaycan gəncliyi layiqincə tanıdılıb.

## Nəticə

Yuxarıda qeyd olunanlara əsasən yekun olaraq demək olar ki, gənclər siyasəti yalnız gənclərin özləri tərəfindən idarə olunduğu zaman tam və effektli şəkildə formalaşa bilər. Bu baxımdan, əsas rolu məhz gənclərin təşəbbüsü ilə yaradılan gənclər təşkilatları oynayır. Azərbaycan Respublikasının gənclər siyasətini gənclər təşkilatları olmadan təsəvvür etmək mümkün deyil, çünki bu təşkilatlar gənclərin maraqlarını təmsil edir və onların cəmiyyətdə aktiv rol oynamasını təmin edir. Azərbaycanda gənclər təşkilatlarının sayının kifayət qədər çox olması həm ölkədə mövcud olan demokratik mühitin, həm də gənclərin ictimai fəallığının mühüm göstəricisidir.

Gənclər siyasətinin həyata keçirildiyi hər bir ölkədə olduğu kimi, Azərbaycanda da bu siyasətin əsas istiqamətlərindən biri gənclərin müxtəlif ictimai, sosial və siyasi proseslərdə iştirakını artırmaqdır. Bu məqsədə nail olmağın ən səmərəli yolu isə gənclər təşkilatlarının fəaliyyətini stimullaşdırmaq və onların imkanlarını genişləndirməkdir. Gənclər təşkilatları vasitəsilə gənclər cəmiyyətin fəal və məsuliyyətli üzvlərinə çevrilir, nəticədə ölkənin sosial, mədəni və iqtisadi inkişafına öz töhfələrini verirlər.

Nəticə etibarilə, Azərbaycan gənclər təşkilatlarının fəaliyyəti gənclər siyasətinin səmərəliliyinin əsas göstəricilərindən biridir. Dövlət tərəfindən bu təşkilatlara göstərilən dəstək, onların fəaliyyətlərinin optimallaşdırılması və inkişaf etdirilməsi istiqamətində atılan addımlar Azərbaycan Respublikasında gənclər siyasətinin davamlı, dayanıqlı və məqsədyönlü inkişafını təmin edir.

## Ədəbiyyat

1. Aslanbayova, N. (2021). *Azerbaijan youth policy governance*. The Council of Europe. https://pjp-eu.coe.int/documents/42128013/114007071/Azerbaijan_YW_Ch1_Nov2021.pdf/7b29ed2f-99e3-b7f1-a3ba-915cf8d2f5ed
2. Azərbaycan Respublikası Gənclər Fondu. (2021, iyul 24). *Gənclər təşkilatları üçün elan edilən 15-ci qrant müsabiqəsinin nəticələri*. https://youthfoundation.az/121895/
3. Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası. (2025). *Biz kimik*. https://nayora.az/az/biz-kimik
4. Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi. (2018, oktyabr 31). *Azərbaycan Diaspor Gəncləri təşkilatı*. https://diaspor.gov.az/xeberler/x161.php
5. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2024). *Əhalinin sayı: Aylar üzrə*. https://www.stat.gov.az/source/demoqraphy/ay/
6. Azərbaycan Respublikasının Qanunu. (2002, aprel 9). *Gənclər siyasəti haqqında Azərbaycan Respublikasının Qanunu*. https://e-qanun.az/framework/1619
7. Cəfərov, H. (2007). *Azərbaycan gənclər hərəkatı yeni inkişaf mərhələsində*. Adiloğlu.
8. Cəfərov, H. (2009). *Azərbaycanda gənclər hərəkatı (XX əsr)*. Nurlan.
9. Cəfərov, N. (2004). *Azərbaycan: Heydər Əliyevdən İlham Əliyevə*. Çaşıoğlu.
10. Rəcəbli, H. (2012). *Azərbaycan Respublikasının sosial müdafiə sistemi*. MBM.
11. Talibli, R. (2023). Azerbaycan Cumhuriyeti'nde Devlet Gençlik Politikasının Uygulanmasının Temel Yönergeleri ve Mekanizmaları. *Akademik Tarih ve Düşünce Dergisi, 10*(2), 1–18.
12. Yusifli, X. (2025). Müasir mərhələdə Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin inkişaf etdirilməsi istiqamətləri və optimallaşdırılması yolları. *Geostrategiya, 2*(86). https://doi.org/10.30546/3006-0346.2025.2.86.213
13. NAM Youth Organization. (2021, oktyabr). *About us*. https://www.namyouth.org/

Daxil oldu: 06.04.2025
Qəbul edildi: 14.07.2025